

LAYİHƏ

**Şirkətlər faktorinq ilə satışlarını artırırlar**

SƏH. 2




BANK

"Bank of Baku" son rəqəmləri açıqladı

SƏH. 2




RABİTƏ

**Bakcell yeni Satış və Xidmət Mərkəzinin açılışını edib**

SƏH. 3

iqtisadi qüdrətimiz naminə!

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 31 (926)
5 - 11 avqust
2016-cı il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

# Konstitusiya Məhkəməsi "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsinə rəy verib



İyulun 25-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

İclasda Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 153-cü maddəsinin tələbinə əsasən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyinin alınması üçün iyulun 18-də təqdim olunmuş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ilə bağlı məsələyə baxılıb.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq işə baxan Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib.

Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev məruzə ilə çıxış edərək Azərbaycan Respublikası Prezidentinin Konstitusiyaya təklif etdiyi dəyişikliklər barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, Konstitusiyanın müvafiq bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Ali Qanununa dəyişiklik yalnız referendum yolu ilə edilə bilər. Konstitusiyanın 153-cü maddəsinə əsasən, Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti təklif verdikdə Konstitusiya Məhkəməsinin rəyi alınır.

Müşavirədən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Qərarını oxuyub.

Qərara əsasən, Konstitusiya Məhkəməsi "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsinə rəy verib.

Qeyd edək ki, Konstitusiya Məhkəməsinə göndərilən Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezidentlər postunun yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, prezidentə Milli Məclisi buraxmaq və növbədənkənar prezident seçkilərinin elan edilməsi səlahiyyətinin verilməsi, prezident seçkilərində yaş məhdudiyyətinin aradan qaldırılması, parlament seçkilərində iştirak üçün yaş həddinin 25-dən 18-ə endirilməsi nəzərdə tutulur.

* * *

Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncama əsasən ümumxalq səsverməsi (referendum) 2016-cı il sentyabrın 26-na təyin edilmişdir.

## Qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı

Prezident İlham Əliyev Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, ölkədə nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılıb.

## Mətbuat işçiləri üçün yaşayış binasının tikintisinin davam etdirilməsi ilə bağlı Sərəncam imzalandı

Prezident mətbuat işçiləri üçün yaşayış binasının tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrılıb.

## Xalça fabriki inşa olunur

"Azərxalça" ASC İsmayıllı şəhərində yeni xalça fabrikinin inşasına başlayıb.

Xalça fabriki şəhərin Əfzələddin Xaqani küçəsində tikilir. Burada xalça sənaye üsulu ilə istehsal olunacaq.

Fabrik üçün 0,48 hektar torpaq sahəsi ayrılıb. Bunun 1204 kvadratmetrində tikinti işləri aparılacaq. Layihədə 440 kvadratmetrdən ibarət toxuculuq zalı, sərgi və konfrans salonları, yeməkxana və digər məişət otaqları nəzərdə tutulub.

170 nəfər xalçaçının işləyəcəyi fabrikdə Azərbaycanın ən qədim, zərif, incə naxışlı toxuculuq məhsulları hazırlanacaq.




## "Amrahbank" nizamnamə kapitalını artırır




"Amrahbank" ASC nizamnamə kapitalını əlavə 20 milyon manat artırır.

Bankdan verilən məlumata görə, nizamnamə kapitalının artırılması ilə əlaqədar qərar bankın səhmdarlarının iyulun 26-da keçirilmiş ümumi yığıncağında qəbul olunub.

Bununla əlaqədar işlərin aparılmasına dair İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

31 dekabr 2015-ci il tarixinə "Amrahbank" ASC-nin cəmi kapitalı 44 milyon 18 min manat təşkil etmişdi. Bu, 2014-cü ilin sonu ilə müqayisədə 5 milyon 518 min manat və ya 11,1% azdır.

Qeyd edək ki, "Amrahbank" 2015-ci ili 5 milyon 518 min manat zərər ilə başa vurub. Məhz zərərə görə, Bankın cəmi kapitalı azalmışdır.

"Amrahbank"dan bildirilmişdi ki, Bankın cəmi kapitalının 44 milyon manata düşməsi Mərkəzi Bankın 50 milyon manat olan kapital tələbinin pozulması demək deyil. Mərkəzi Bankın müəyyən etdiyi hesablama metoduna əsasən, Bankın məcmu kapitalı 53 milyon 988 min manatdır. Bankın ötən il səhmdarlarından cəlb etdiyi 5 milyon 458 min manat vəsait (subordinasiya olunmuş borc) hesabına, zərər ilə bağlı olaraq kapitalda baş vermiş azalma artıqlaması ilə örtülüb. 2016-cı ildə də səhmdarlardan təxminən 2,5 milyon manat vəsait cəlb edilib, nəticədə də bankın məcmu kapitalı 56,5 milyon manata çıxıb.

1993-cü ildən fəaliyyət göstərən "Amrahbank"ın səhmlərinin 53,2%-i İldırımzadə Yunis Əli oğluna, 45,84%-i "IIB Caspian Investment Company"yə, 0,33%-i İldırımzadə Elza Abbas qızına, 0.33%-i İldırımzadə Əmrah Yunis oğluna, 0,33%-i İldırımzadə Xalid Yunis oğluna məxsusdur.

Xatırladaq ki,"Amrahbank" Azərbaycanın ərəb kapitalı ilə fəaliyyət göstərən yeganə bankıdır. Belə ki, Bəhreyn Krallığında fəaliyyət göstərən Beynəlxalq İnvestisiya Bankı 2008-ci ildən "Amrahbank"ın strateji səhmdarıdır.

Hal hazırda bank baş ofisi, 22 filialı və 1 şöbəsi ilə fəaliyyət göstərir. Bankın filiallar şəbəkəsi paytaxtla yanaşı, respublikamızın Sumqayıt, Gəncə, Lənkəran, Masallı, Bərdə,Şəmkir, Goranboy, Tovuz kimi regionlarını da əhatə edir.



# "Bank Standard"ın sağlamlaşdırma proqramının birinci mərhələsinin icrasına başlanılır




3 avqust 2016-cı il tarixdən etibarən Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən QSC "Bank Standard" KB-yə təyin edilmiş müvəqqəti inzibatçılıq müddəti başa çatıb və banka göstərilən dövlət dəstəyi çərçivəsində 4 avqust 2016-cı il tarixdən etibarən bankın sağlamlaşdırma proqramının birinci mərhələsinin icrasına başlanılır.

"Bank Standard"da yaranmış maliyyə problemlərinin tənzimlənməsi məqsədilə banka təyin olunmuş yeni rəhbərlik tərəfindən hazırlanmış sağlamlaşdırma proqramı bankın likvidliyinin artırılması, kapital, aktivlərinin keyfiyyətinin və uzunmüddətli dayanıqlığının təmin edilməsi ilə yanaşı, həmçinin əhalinin bankda olan əmanətlərinin mərhələli şəkildə tam həcmdə qaytarılmasını nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, "Bank Standard"ın sağlamlaşdırma proqramı müştərilər qarşısında öhdəliklərin icrası ilə yanaşı, həm də bankın gələcək dayanıqlı inkişaf strategiyasının bir hissəsi kimi çıxış edir və ölkənin ən böyük maliyyə institutlarından birinin bazardakı rolunun gücləndirilməsinə yönəlib. Bankın sağlamlaşdırılması prosesi mərhələli şəkildə aparılacaq.

Sağlamlaşdırma proqramının birinci mərhələsi çərçivəsində fiziki şəxslərin "Bank Standard"dakı 30.000 AZN-dək (və ya onun xarici valyutada ekvivalentində) cari/kart hesabları və 2016-cı ildə vaxtı bitən əmanətləri üzrə vəsaitlər limitsiz şəkildə ödəniləcək.

Müştərilərin "Bank Standard"dakı 30.000 AZN-dən artıq (və ya onun xarici valyutada ekvivalentində) cari/kart hesabları və 2016-cı ildə vaxtı bitən əmanət qalıqları üzrə vəsaitlərin ödənilməsi ilə bağlı bir neçə təklif nəzərdə tutulur.

Hazırlanmış təkliflərlə bağlı müştərilərə əlavə məlumat veriləcək.

Müddəti 2016-ci ildən sonra başa çatan əmanətlər üzrə tədbirlər planı sağlamlaşdırma proqramının 2017-ci ildə həyata keçiriləcək ikinci mərhələsi çərçivəsində hazırlanacaq və bu ilin sonunadək təqdim olunacaq.

Sağlamlaşdırma proqramı çərçivəsində həm ölkə daxilində, həm də ölkə xaricində "Bank Standard" KB-nin plastik kartlarının fəaliyyəti bərpa edilir.

Qeyd olunan tarixdən hüquqi şəxslərin "Bank Standard"dakı cari hesabları üzrə əməliyyatlar məhdudiyyətsiz aparıla bilər.

Xatırladaq ki, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının 2 may 2016-cı il tarixli qərarına əsasən, bankda yaranmış problemləri tənzimləmək üçün dövlət tərəfindən mayın 3-dən etibarən QSC "Bank Standard" KB-yə 3 ay müddətinə müvəqqəti inzibatçı təyin edilmişdi.

Bankın sistem əhəmiyyətini nəzərə alaraq, 4 iyul 2016-cı il tarixdə onun səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan "Azər-Türk Bank" ASC vasitəsilə sağlamlaşdırılması (sanasiyası) haqqında qərar qəbul olunub.

Sağlamlaşdırma proqramı çərçivəsində 03 avqust 2016-cı il tarixində QSC "Bank Standard" KB-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçirilib. Yığıncaqda QSC-nin Müşahidə Şurası və Audit Komitəsinin tərkibi yenidən formalaşdırılıb, İdarə Heyətinin tərkibində dəyişikliklər edilib.

Bankın Müşahidə Şurasının sədri Rumiyə Məmmədova, üzvləri Xəyyam Əliyev və Elşad Şirinbəyov, Audit Komitəsinin sədri Zamiq Məmmədov, üzvləri Raman Abışov və Paşa Əhmədzadə təyin olunublar.

Bundan başqa, Xalid Əhədov "Bank Standard"ın İdarə Heyətinin sədri və Mustafa Rəşidov isə İdarə Heyətinin üzvü vəzifələrinə təyin ediliblər.

# Naftalana ən çox turist bu ölkələrdən gəlir



Bu il ərzində Naftalan şəhərinə gələn turistlərin sayı 7000 nəfərə çatmışdır. Əgər 2014-cü ildə Naftalana 3000 xarici turist gəlmişdisə, ötən ilin ötən 7 ayında bu rəqəm 8000 nəfəri keçmişdi.

Turistlərin 1550 nəfəri Türkiyə, Polşa, Yaponiya, Çin, Slovakiya, Gürcüstan, Qazaxıstan və digər dövlətlərin vətəndaşlarıdır.

Hazırda şəhərdə fəaliyyət göstərən irili, xırdalı turizm-müalicə mərkəzlərində gün ərzində iki mindən artıq qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək imkanı var. Müalicəvi əhəmiyyətə malik olan məşhur Naftalan nefti ilə 70-dən artıq xəstəliyin müalicəsi aparılır.

Qeyd edək ki, Naftalanda mövcud turizm obyektlərində xidmət səviyyəsindən asılı olaraq bir günlük xərc 25-30 manat arasındadır. Bu qiymətlərə gündə 3 dəfə qidalanmaq, gecələmək və müalicə prosedurları daxildir.

# "Bank of Baku" son rəqəmləri açıqladı

30 iyun 2016-cı il tarixinə "Bank of Baku" ASC-nin cəmi aktivləri 587 milyon 386,97 min manat təşkil edib.

Aktivlərin 327 milyon 89,79 min manatını müştərilərə verilmiş kreditlər təşkil edib.

"Bank of Baku" ötən ilin sonunda 734 milyon 848,69 min manat, 31 mart 2016-cı il tarixində isə 591 354,33 min manat cəmi aktivlərə malik idi. Eyni tarixlərdə Bankın kredit portfeli müvafiq olaraq 485 milyon 274,75 min manat və 386 milyon 634,49 min manat təşkil etmişdi.

30 iyun 2016-cı il tarixinə "Bank of Baku"nun cəmi öhdəlikləri 522 milyon 654,98 min manat, cəmi kapitalı isə 64 milyon 731,98 min manat təşkil edib. Bank ötən ilin sonunda 645 milyon 501,33 min manat cəmi öhdəliklərə və 89 milyon 347,37 min manat cəmi kapitala malik idi. Birinci yarım ilin sonunda Bankda müştəri depozitləri 306 milyon 92,03 min manat təşkil edib




(ötən ilin sonunda 429 milyon 960,77 min manat idi).

"Bank of Baku" hələlik maliyyə nəticələri (gəlir, xərc və mənfəət) barədə hesabatını açıqlamayıb.

# "Expressbank"-dan "nağdlaşdırma limiti" açıqlaması

expressbank

Son günlər bir sıra KİV-də Expressbank-ın plastik kartlarında nağdlaşdırma limitlərinin müəyyən edilməsi haqqında səhv məlumat verilmişdir. Mövzu ilə əlaqədar Bankdan daxil olmuş açıqlamada deyilir.

"Birmənalı olaraq bildirmək istəyirik ki, haqqında danışılan limitlər yalnız Smilecard taksit kartlarına aiddir. Xatırladaq ki, bazarda mövcud bütün taksit kartlarda nağdlaşdırma üzrə limitlər mövcuddur. Expressbank-ın digər hər hansı plastik kartlarına nağdlaşdırma ilə bağlı nəinki limit təyin edilməyib, hətta nağdlaşdırma komissiyası "0%" olaraq müəyyən edilib saxlanılır.

Hazırda Smilecard sahibləri üçün limitlərin tətbiqi ölkə üzrə nağdsız alış-verişin stimullaşdırılması və bank-ın təqdim etdiyi ExpressClub layihəsinə marağın artırılmasına xidmət edir. Belə ki, müştərilər ExpressClub xidməti çərçivəsində plastik kartlar vasitəsi ilə POS-terminallar üzərindən alış-veriş edərkən, xərclədikləri vəsaitin 0,3%-dən 20%-dək hissəsini karta geri qazanırlar (cash back). Müştərilər həm nağdlaşdıra, həm də POS-terminallar vasitəsi ilə yenidən alış-veriş etməklə növbəti xərclərini də gəlirə çevirə bilərlər.

Stabil inkişaf edən maliyyə göstəriciləri əsasında Fitch Ratings beynəlxalq reytinq agentliyi tərəfindən Expressbank-a "B" səviyyəli "stabil" proqnozu təqdim edilib. Bu reytinq ölkə bankları sırasında yüksək nəticələrdən hesab edilir".

Expressbank-ın xidmət şəbəkəsi 16 filialdan ibarətdir. Onlardan 10-u Bakı və Sumqayıt şəhərlərində, 6-sı isə ölkənin Gəncə, Mingəçevir, Bərdə, Qusar, Xaçmaz və Şirvan şəhərlərində yerləşir. Bankın ölkə üzrə 80-dək bankomat, 6000-dək POS terminal və 500-dən artıq ExpressPay ödəniş terminalı vardır.

KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Şirkətlər faktorinq ilə satışlarını artırırlar

## Kiçik və orta sahibkarlar dövriyyə vəsaiti ehtiyaclarını faktorinq ilə qarşılaya bilərlər

Məhsulunu nağd şəkildə satmaq hər bir sahibkarın arzusudur. Reallıqda isə həmişə bu mümkün olmur, satıcı sahibkar alıcı sahibkarın tələblərinə əməl etmək məcburiyyətində qalır. Məhsul və ya xidmət nisyə satılır. Əlində olan pulunu satdığı məhsulun istehsalında xərcləmiş sahibkar, bir çox hallarda ödənişi alana qədər yeni sifariş qəbul edə bilmir. Bu müddətdə satıcı sahibkarın dövriyyə vəsaitinə ehtiyacı yaranır. Çoxları bilmir ki, satıcı alıcının borcunu ödəyəcəyi vaxta qədər gözləməyə də bilər, həmin vəsaiti faktorinq vasitəsilə asanlıqla əldə etmək olar.

"PAŞA Bank" ASC-nin Debitorların Maliyyələşməsi şöbəsinin rəhbəri Aynura Piriyevadan faktorinq xidməti barədə ətraflı məlumat almışıq.

### ŞİRKƏTLƏRDƏ DÖVRİYYƏ VƏSAİTİ ÇATIŞMAZLIĞI VAR

Aynura Piriyeva bildirdi ki, mövcud iqtisadi vəziyyətlə bağlı olaraq şirkətlərin dövriyyə vəsaitlərinə daha çox ehtiyacı var. Belə ki, satılan məhsul və ya xidmətə görə ödəmə müddətləri uzanıb, sahibkarlar pulu daha gec müddətə alırlar. Satıcı isə pulu vaxtında almaqda maraqlıdır. Çünki yenidən xammal alınmalı, işçilərə əməkhaqqı ödənməli və digər öhdəliklər yerinə yetirilməlidir:

"Hazırkı bazar şəraiti ilə bağlı olaraq alıcıların ödəmə qabiliyyətində müəyyən zəifləmə müşahidə olunur. Əvvəl müqavilələrdə alıcının satıcıya malın və ya xidmətin dəyərinin 30-60 gün ərzində ödəniləcəyi göstərilirdi, indi isə bu göstərici 60-90 günə qalxıb. Yəni, əvvəllər "A" şirkəti "B" şirkətinə aldığı malın və ya xidmətin dəyərini 30 günə ödəyirdisə, bu gün həmin müddət 60 günə qədər uzanır. Səbəb satışların aşağı düşməsidir.

Göndərdiyi malın və ya göstərdiyi xidmətin pulunu vaxtında ala bilməyən sahibkar biznesini genişləndirə bilmir. Çünki satıcı sahibkar pulunun böyük hissəsini göndərdiyi malın və ya xidmətin istehsalı üçün xərcləyib.

PAŞA Bank bizneslərin maliyyə tərəfdaşı mövqeyindən irəli gələrək, bu problemin həlli üçün faktorinq məhsulu işləyib hazırlamışdır. Belə ki, müqavilə əsasında mal göndərən və ya xidmət göstərən sahibkarlar hesab-fakturanı və təhvil-təslim aktını "PAŞA Bank"a təqdim edərək müqavilə məbləğinin 95%-nədək vəsait ala bilərlər. Ödənişin vaxtı çatanda isə alıcıdan vəsaiti tam alaraq qalan 5%-i də satıcıya ödəyirik.

### FAKTORİNQDƏN İSTİFADƏ ÜÇÜN ƏSAS ŞƏRTLƏR

Aynura xanım qeyd etdi ki, faktorinq prosesi zamanı bank alıcının borcunu satıcıya ödəyir və vaxtı çatdıqda alıcı da borcunu banka qaytarır. Bank bu xidmətin müqabilində cüzi komissiya alır. Faktorinq vasitəsilə maliyyə vəsaiti almaq üçün satıcı şirkət banka müraciət etməlidir:

"Faktorinqdən istifadə üçün əsas şərt alıcı və satıcı arasında rəsmi müqavilənin bağlanmasıdır. Həmçinin, malın göndərildiyini və ya xidmətin göstərildiyini təsdiq edən qaimə-faktura, təhvil-təslim aktı olmalıdır. Bundan başqa, faktorinq xidmətindən istifadə etmək üçün alıcı və satıcı şirkət bazarda müəyyən zaman fəaliyyət göstərməlidir. Ən azı 4-6 ay real fəaliyyəti olmalıdır. Bazarda öz yerini tutmuş, rəsmi şəkildə mühasibatlığı olan şirkətlər faktorinqdən rahat istifadə edə bilərlər".

### FAKTORİNQİN XƏRCİ

Aynura xanım bildirdi ki, faktorinq məbləği şirkətdən-şirkətə fərqlənir: Faktorinq qiymət baxımından da sahibkarlar üçün sərfəlidir. Kredit götürən zaman sahibkar çoxlu



sayda sənədlər təqdim etməli və banka girov qoymalıdır. Faktorinqdə isə istisna hallar xaric, girov tələb olunmur. Müqavilə əsasında rəsmi çalışan, malları və xidmətləri çatdırmaq qabiliyyətində olan şirkətləri dövriyyə vəsaitlərilə təmin edə bilərik. Məsələn, müştəriyə 30 günlük verilən maliyyənin xərci cəmi 1,5-2 %-a qədər təşkil edir".

### VƏSAİT 1 GÜN ƏRZİNDƏ ALINA BİLİR

Aynura Piriyeva bunu da qeyd etdi ki, müştəri faktorinq üçün ilk dəfə müraciət etdikdə maksimum 10 gün ərzində ona cavab verilir: "Hər şey tələb etdiyimiz sənədləri müştərinin vaxtında təqdim etməsindən asılıdır. Əgər müştəriyə müsbət cavab verilərsə, ona bir limit müəyyən olunur. Müştəri 1 il ərzində hesab-fakturalarını banka təqdim etməklə həmin limit daxilində maliyyə ala bilər. Müştəri təhvil-təslim aktını və hesab-fakturanı səhər banka təqdim etdikdə axşama qədər pulu alır. Mal və xidmətlər mütləq çatdırılmalı, digər tərəfin öhdəliyi yaranmalıdır. Biz bu növ öhdəliyi maliyyələşdiririk".

### "YERLİ BAZARDA ALICI VƏ SATICILARI YAXŞI TANIYIRIQ"

Əslində faktorinq banklar üçün risklidir. Alıcının borcunu ödəməməsi riski var:

"PAŞA Bankda mütəmadi olaraq bazar araşdırması aparan güclü analitik komanda var. Həmçinin, müştəri bazamız geniş olduğu üçün bir çox hallarda alıcı və satıcı artıq Bankla bu və ya digər şəkildə əməkdaşlıq edir. Bazar araşdırması olduğu və müştəriləri tanıdığımız üçün vəziyyəti düzgün qiymətləndirə bilirik",- Aynura Piriyeva bildirdi.

### FAKTORİNQDƏN İSTİFADƏ SATIŞLARI ARTIRIR

Aynura Piriyeva vurğuladı ki, faktorinq sahibkarların dövriyyələrini artırmağa çox kömək edir:

"Bir çox müştərilərimiz, faktorinqdən istifadə etdikləri müddətdə satışlarının artığını və bizneslərinin genişləndiyini qeyd edir. Elə müştərimiz var ki, bir il əvvəl onunla 50 min manatlıq limit ilə başlamışdıq, bu gün isə limit 500 min manatdır. Faktiki olaraq faktorinq onlara dövriyyələrini 10 dəfə artırmağa kömək edib. Biz həmin müştərilər ilə bir neçə aydan sonra ən azı 2 milyon manat limit ilə işləyəcəyimizi gözləyirik".

### 6 AYDA 50 MİLYON MANATLIQ PORTFEL

Aynura Piriyeva dedi ki, çox böyük maraq olduğundan PAŞA Bankın faktorinq portfeli bu ilin 6 ayında 50 milyon manatı keçib:

"PAŞA Bank faktorinq məhsulunu 2015-ci ilin əvvəlindən təqdim edir. Cari ilin 6 ayı ərzində isə portfel 50 milyon manatı keçib. Son zamanlar iqtisadiyyatda müəyyən durğunluq olduğundan faktorinqə tələb daha da artıb və bu xidmət üçün müraciət edənlər daha çox kiçik və orta sahibkarlardır. Şirkətlər bazardan pullarını nəzərdə tutduqları vaxtda toplaya bilmirlər. Əvvəllər alıcılar aldıqları məhsulları rahat şəkildə sata bildiklərindən borclarını rahat şəkildə də ödəyə bilirdilər. Bu gün isə satışlar zəif olduğundan müqavilə üzrə ödəmə müddətləri də uzanıb. Buna görə, faktorinqin əhəmiyyəti artır. İlin sonunda PAŞA Bankın faktorinq portfelinin 100 milyon manata çatacağını gözləyirik".



### İXRACATÇILARA DƏSTƏK

PAŞA Bank daxili faktorinq ilə bərabər, eyni qaydada ixracatçılar üçün beynəlxalq faktorinq xidmətləri də təklif edir:

"Biz sahibkarların ixracını da maliyyələşdirə bilərik. Bir təchizatçı xarici bazarlara çıxan zaman qarşısında iki əsas narahatlıq durur. Birinci, xaricə mal satan sahibkar 60 və ya 90 gün sonra pulunu ala biləcəkmi? İkincisi, yeni alıcılara güvənə bilirmi? Biz faktorinq xidmətini təklif edərək hər iki problemi həll edirik. Biz alıcının ödəməmə riskinə təminat verə bilirik, çünki xaricdəki alıcının bankı da faktorinq əməliyyatına cəlb edilir. Həmin bank alıcını yaxşı tanıdığından PAŞA Banka ödəniş üçün təminat verir. Qısası, ixracatçı sahibkar nə 60-90 gün gözləyir, nə də pulunun ödənilməcəyinə görə narahat olur: malları göndərəndən sonra sənədləri Banka təqdim edir və pulunu alır. İnanırıq ki, beynəlxalq faktorinq xidmətimiz yerli istehsala dəstək olaraq qeyri-neft sektorunun inkişafı üçün geniş üfüqlərin açılmasına töhfə verəcək".

### BORC ÖDƏNMƏSƏ KİM QAYTARACAQ?

Faktorinqin iki növü var: reqres hüququ olan faktorinq və reqres hüququ olmayan faktorinq.

"Faktorinq borcun satın alınmasıdır. Bank satıcıdan borcu alır və alıcı həmin borcu Banka ödəyir. Reqres hüququ olmayan faktorinq zamanı alıcı məlumatlandırılır. Satıcı faktorinqə müraciət etdiyindən alıcıya borcunu banka ödəyəcəyi bildirilir. Alıcı borcunu ödəyə bilmədiyi halda, pulumuzu satıcıdan geri tələb edə bilmirik. Reqres hüququ olan faktorinqdə isə vaxtı çatdıqda alıcı borcunu ödəmədiyi halda, biz öz müştərimiz olan satıcıdan vəsaiti geri tələb edirik. Biz çalışırıq ki, daha çox reqres hüququ olan faktorinqi sataq. Yəni, biz sadəcə satıcını maliyyələşdiririk",- o dedi.

Reqres hüququ olmayan faktorinqin qiymətləndirilməsi individual yanaşma tələb edir. Bank alıcının ödəmə qabiliyyətinə tam əmin olduqdan sonra belə faktorinqə razılıq verir:

"Çox vaxt alıcını analiz etmək çətin olur. Bizim satıcını analiz etmək imkanımız var. Ola bilər ki, alıcının çox yaxşı reputasiyası olsun, bu zaman reqres hüququ olmayan faktorinq üçün komissiya haqqı da aşağı ola bilər. Risk nə qədər az olarsa, qiymət də bir o qədər aşağı düşür".

"PAŞA Bankın faktorinq xidmətindən ən çox ticarət, tikinti, qida sənayesi və xidmət sekoru faydalanır", - Aynur Piriyeva vurğuladı.

*Hazırladı: Seymur YUNUSOV*



# PR menecerlərə sertifikatlar təqdim edildi

22 iyul 2016-cı il tarixində "Excelsior Hotel Baku" otelində "Alibayov Kommunikasiya & Konsaltinq" şirkəti və Avropa İctimaiyyətlə Əlaqələr İnstitutu (Fransa) tərəfindən "Şirkətin mətbuat xidməti: müasir trend və drayverlər" elmi-metodiki ixtisasartırma proqramında iştirak edən PR menecerlərə Avropa İctimaiyyətlə Əlaqələr İnstitutunun sertifikatları təqdim edildi. Təlimdə "AtaHolding" Korporativ Kommunikasiya şöbəsinin rəisi Dilara Zamanova, "Veysəloğlu" Şirşətlər Qrupunun İctimaiyyətlə Əlaqələr şöbəsinin rəisi İlham Məmmədzadə, Hed Akademy şirkətinin PR meneceri İbrahim Mirzəyev, "B.EST Solutions" (Asan İmza) şirkətinin PR meneceri Kamran Əliyev, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin şöbə müdiri Fazil Talıblı və digərləri iştirak etdilər.

Təlim 11 iyul tarixindən 22 iyul tarixinə qədər Milli Olimpiya stadionunda "Hed Academy" şirkətinin ofisində keçirilmişdir. Təlimdə Avropa İctimaiyyətlə Əlaqələr İnstitutunun Ekspertlər Şurasının üzvü Vəli Əlibəyov İctimaiyyətlə əlaqələr, media ilə əlaqələr - əsas anlayışlar, müasir yanaşmalar, mətbuat xidməti necə olmalı, kommunikasiya əsrinin KİV-i: qəzetlər, jurnallar, internet, televiziya, radio, hədəf auditoriyalara görə informasiya kanallarının seçimi, hədəf auditoriyalar üçün nəzərdə tutulmuş məlumatların klassik və müasir çatdırılma yolları, mətbuat xidməti və KİV mövzularını əhatə etmişdir.

"Veysəloğlu" Sirkətlər Qrupunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri, həmçinin Azərbaycan İctimaiyyətlə Əlaqələr Assosiasiyasının (APRA) sədri İlham Məmmədzadə bildirdi: "Bu təlimdən bizim öyrəndiyimiz PR sahəsində nəzəri biliklər ilə yanaşı, yerli və beynəlxalq keyslərin nəzərdən keçirilməsi və təhlil edilməsi olmuşdur. İnanıram və ümid edirəm ki, bu kimi beynəlxalq sertifikatı təlimlərdə əldə edilmiş bilik və təcrübə Azərbaycan PR texnologiyasına geniş töhfəsini verəcəkdir.

"AtaHolding" Şirkətlər Qrupunun Korporativ Kommunikasiya şöbəsinin rəisi Dilara Zamanova bildirdi ki, elmi-metodiki ixtisasartırma proqramında iştirak etdiyindən çox məmnundur. "Treninqin aparıcısı Vəli Əlibəyov müasir mərhələdə mətbuat xidmətinin fəaliyyətinin bütün aktual mövzularına toxunmuşdur", - deyə o, əlavə etdi. Treninq zamanı bütün iştirakçıların fəallığı sayəsində həmçinin, təcrübə mübadiləsi də aparıldı.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin şöbə müdiri Fazil Talıblı bildirdi ki, keçirilmiş bu təlim PR sahəsində beynəlxalq praktikanı bizə nümayiş etdirməklə hazırda mövcud olan tələbləri icra etməyə bizə kömək olacaq. Hazırda ölkəmizdə mövcud olan söz və fikir, mətbuat azadlığı çərçivəsində biz - PR-la məşğul olan şəxslərin fəaliyyətinin də beynəlxalq tələblər səviyyəsində qurulması vacibdir. Düşünürəm ki, ictimaiyyətlə əlaqələrin yüksək səviyyədə qurulması, KİV-lə əməkdaşlığın yüksəldilməsi və bu sahəyə yeni töhfələrin gətirilməsi üçün bu təlimin əvəzsiz rolu olacaqdır. Bununla yanaşı, həmkarlarımızla fikir mübadiləsi üçün bizə yaradılan şəraiti yüksək qiymətləndirirəm.

Tədbirin sonunda PR menecerlər təlimin yüksək səviyyədə keçməsini qeyd etdilər və təlimlə bağlı fikirlərini söylədilər. Sertifikatların təqdim edilməsi bayram günü – Milli Mətbuat günü ilə üst-üstə düşmüşdür, axı məlum olduğu kimi, ictimai əlaqələr sahəsi KİV-dən ayrılmazdır.

# Unibank nizamnamə kapitalını iri məbləğdə artırır

Unibank öz nizamnamə kapitalını 80% artıraraq, 125 milyon 565 min 234.08 manata çatdıracaq. Bu haqda "Unibank" Kommersiya Bankı" ASC-nin səhmdarlarının 2 avqust tarixində keçirilən iclasında qərar verilib.

Səhmdarların qərarı ilə bankın nizamnamə kapitalı əlavə səhmlərin buraxılması yolu ilə artırılacaq. Səhmlərin yerləşdirilməsi üzrə, qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olaraq "Unicapital" İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti seçilib. Səhmdarların qərarı ilə səhmlərin yerləşdirilməsi qapalı yerləşdirilmə üsulu ilə, əqdlərin Bakı Fond Birjasında qeydiyyatı vasitəsilə həyata keçiriləcək.

Qeyd edək ki, hazırda Unibank-ın nizamnamə kapitalı 70 milyon 565 min 232 manatdır. 2 avqustda səhmdarların qərarı ilə bankın nizamnamə kapitalı 1,8 dəfə artacaq. Bu qərardan sonra Unibank ölkənin ən kapitallaşmış maliyyə təsisatlarından birinə çevrilməklə yanaşı, böyük layihələrin reallaşdırılmasını daha da sürətləndirəcək.

Hazırda bankın müştərilərinin sayı 800 mindən artıqdır. Real sektorun kreditləşməsində vacib rol oynayan Unibank qoyulan depozitlərin həcminə görə də bazarda böyük paya malik banklardan biridir.

# Azər Türk Bank filial şəbəkəsini genişləndirir

Avqustun 1-də "Azər Türk Bank" ASC-nin "Şirvan" filialının açılışı mərasimi keçirildi. Şirvan şəhəri, Məhəmməd Əmin Rəsulzadə küçəsi 33 ünvanında yerləşən filial bankın inkişaf konsepsiyasına uyğun olaraq qurulub və müasir bankçılıq texnologiyaları ilə təchiz edilib.

Şirvan şəhərinin, eləcə də ərtaf bölgələrin sakinləri həftəiçi hər gün saat 09.30-dan 17.00-a qədər Azər-Türk Bankın "Şirvan" filialına gəlməklə yüksək keyfiyyətli bank xidmətlərindən yaralana bilərlər. Burada korporativ və fərdi müştərilərə depozitlər, müxtəlif növ kredit məhsulları, kassa hesablaşma əməliyyatları, pul köçürmələri, plastik kartların sifarişi, kommunal ödənişlər, nağd valyuta ilə əməliyyatlar və digər xidmətlər təklif olunur.

Qeyd edək ki, bu, Azər Türk Bankın sayca səkkizinci xidmət ofisidir. 2015-ci ildə Bankın Bakı şəhərində "Yasamal" filialı və 5 saylı ASAN Xidmət Mərkəzində 1 saylı şöbəsi yaradılıb. Eyni zamanda, "Bakı", "Mərkəz" və "Gəncə" filiallarının müasir standartlara uyğun qurulmuş




yeni ofislərinin açılışı olub.

İqtisadiyyatın real sektoruna maliyyə dəstəyinin verilməsini özünün əsas missiyası kimi müəyyənləşdirmiş "Azər Türk Bank" ASC-nin səhmlərinin 75 faizi Azərbaycan dövlətinə məxsusdur.

# Bakcell yeni Satış və Xidmət Mərkəzinin açılışını edib

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti öz xidmət və məhsullarını abunəçilərinə daha yaxın etmək məqsədilə satış və xidmət mərkəzləri şəbəkəsini genişləndirməyə davam edir. Şirkət H.Z.Tağıyev küçəsi, 19 ünvanında yeni konsept və dizaynda olan Satış və Xidmət Mərkəzinin açılışını edib. Bu xidmət mərkəzi Bakcell abunəçilərinə geniş çeşiddə xidmətlər təqdim edir. Şəhərin mərkəzində yerləşən bu mərkəzdə abunəçilər həm Bakcell xidmət və məhsulları haqda məlumat əldə edə, həm də bir çox mobil texnoloji yeniliklərlə tanış ola və müxtəlif mobil cihazları sınaqdan keçirə bilərlər.

"Abunəçilərimizə daha yaxın olmaq üçün Bakının mərkəzində istifadəyə verdi-




yimiz bu yeni Satış və Xidmət Mərkəzi innovativ yanaşma baxımından digərlərindən fərqlənir. Burada hər şey abunəçilərin rahatlığı üçün düşünülüb. İnnovativ mobil operator olaraq abunəçilərimizin xidmət və məhsullarımızdan daha rahat şəkildə faydalanmaları üçün müasir dövrün tələblərini mütləq şəkildə nəzərə alırıq. Bu, şirkətimizin dinamik inkişafının tərkib hissəsidir",- deyə Bakcell şirkətinin baş icraçı direktoru cənab Nikolai Bekers bildirib.

Hazırda "Bakcell"in paytaxt və bölgələrdə 30 Xidmət Mərkəzi öz abunəçilərinə ən üstün müştəri xidməti göstərir. Şirkət öz xidmətlərini abunəçilərinə daha yaxın etmək üçün satış və xidmət şəbəkəsini daha da genişləndirəcək.

# "AXA MBASK" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin 2015-ci il üçün balans hesabatı

*manatla*

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 4 710 841,99 | 4 630 900,72 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | 58 709,87 | 65 913,71 |
| **Daşınmaz əmlaka investisiyalar** | 0,00 | 0,00 |
| **Qeyri-maddi aktivlər** | 2 080 348,44 | 2 490 801,14 |
| **Təxirə salınmış vergi aktivləri** | 629 460,04 | 626 450,90 |
| **Uzunmüddətli debitor borcları** | 0,00 | 0,00 |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 400 000,00 | 400 000,00 |
| dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| sair maliyyə aktivləri | 400 000,00 | 400 000,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 7 879 360,34 | 8 214 066,47 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | 19 548,08 | 22 164,70 |
| **Debitor borcları:** | 3 815 831,98 | 4 215 284,70 |
| birbaşa sığorta üzrə | 3 065 186,68 | 2 951 811,74 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | 373 727,15 | 772 156,66 |
| - təkrarsığortaçı üzrə | 145 605,24 | 63 916,96 |
| - təkrarsığortalı üzrə | 228 121,91 | 708 239,70 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 73 406,61 | 132 001,10 |
| iddia tələbləri üzrə | 0,00 | 0,00 |
| işçi heyəti üzrə | 5 360,61 | 600,00 |
| sığortalılara verilən borclar üzrə | 0,00 | 0,00 |
| sair debitorlar | 298 150,93 | 358 715,20 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 16 632 606,31 | 21 030 482,76 |
| kassa | 1 339,71 | 8 437,12 |
| hesablaşma hesabı | 621 374,52 | 1 750 614,12 |
| valyuta hesabı | 68 717,14 | 436 455,01 |
| depozit hesablar | 15 935 000,00 | 18 804 604,20 |
| sair pul vəsaitləri | 6 174,94 | 30 372,31 |
| **Qısamüddətli maliyyə aktivləri:** | 0,00 | 1 030 005,59 |
| dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 1 030 005,59 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 543 953,27 | 697 525,00 |
| həyat sığortası sahəsi üzrə | 0,00 | 0,00 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 543 953,27 | 697 525,00 |
| **Sair qısamüddətli aktivlər:** | 64 151,19 | 120 922,77 |
| gələcək hesabat dövrlərinin xərcləri | 0,00 | 0,00 |
| verilmiş avanslar | 63 964,56 | 115 521,44 |
| təhtəl hesablar | 186,63 | 5 401,33 |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | 21 076 090,83 | 27 116 385,52 |
| **CƏMİ AKTİVLƏR** | 28 955 451,17 | 35 330 451,99 |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 14 233 320,00 | 19 733 738,00 |
| **Emissiya gəliri** | 255 528,69 | 255 528,69 |
| **Geri alınmış kapital (səhmlər)** | 0,00 | 0,00 |
| **Kapital ehtiyatları:** | 2 261 932,54 | 2 736 925,35 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 2 011 633,54 | 2 011 633,54 |
| digər kapital ehtiyatları | 250 299,00 | 725 291,81 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | -3 675 702,12 | -3 433 610,16 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -2 934 291,62 | 242 091,96 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 0,00 | 0,00 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -741 410,50 | -3 675 702,12 |
| Elan edilmiş dividendlər | 0,00 | 0,00 |
| ***Cəmi kapital*** | 13 075 079,11 | 19 292 581,88 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatları:** | 13 476 129,10 | 12 401 245,21 |
| Həyat sığortası sahəsi üzrə : | 0,00 | 0,00 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 13 476 129,10 | 12 401 245,21 |
| **Qarşısıalınma tədbirləri fondu** | 0,00 | 0,00 |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | 0,00 | 0,00 |
| **Kreditor borcları :** | 0,00 | 0,00 |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| digər məcburi ödənişlər üzrə | 0,00 | 0,00 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 0,00 | 0,00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | 1 722 115,14 | 2 885 974,87 |
| təkrarsığortaçı üzrə | 1 722 115,14 | 2 885 974,87 |
| təkrarsığortalı üzrə | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | 15 198 244,24 | 15 287 220,08 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 0,00 | 0,00 |
| **Kreditor borcları:** | 682 127,82 | 750 650,03 |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 44 251,63 | 46 875,12 |
| digər məcburi ödənişlər üzrə | 12 390,74 | 12 459,52 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 625 485,45 | 691 315,39 |
| **Sair qısamüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | 682 127,82 | 750 650,03 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | 15 880 372,06 | 16 037 870,11 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 28 955 451,17 | 35 330 451,99 |

**MƏNFƏƏT və ZƏRƏR HAQQINDA HESABAT (rüblük və illik)**

*ilin əvvəlindən artan yekunla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 18783440,72 |
| birbaşa sığorta üzrə sığorta haqları | 17663569,87 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 652566,85 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 434663,91 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 32640,09 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | 1228455,62 |
| **İnvestisiya gəlirləri üzrə** | 1537233,81 |
| **Subroqasiya gəlirləri** | 502369,03 |
| **Sair gəlirlər** | 3057590,70 |
| **CƏMİ GƏLİRLƏR** | **25109089,88** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | 13903604,41 |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 10688154,95 |
| qaytarılan sığorta haqları üzrə | 802554,75 |
| tənzimləmə xərcləri | 206511,75 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 1639325,17 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 567057,79 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 0,00 |
| **İşlərin aparılması xərcləri** | 10483126,18 |
| **Sair xərclər** | 419744,34 |
| **CƏMİ XƏRCLƏR** | **24806474,93** |
| **Maliyyə mənfəəti (zərəri)** | **302614,95** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0,00 |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **302614,95** |
| **Mənfəət vergisi** | 60522,99 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **242091,96** |

Caspian Consulting

Sapphire Plaza 5th floor,
Nizami str.1/3, Baku Azerbaijan
Phone: (+994 12) 596 15 17/18
(+994 12) 499 85 82
Fax: (+994 12) 596 30 31
(+994 12) 499 85 81
E-mail: office@cc.baku.az
www.caspian-consulting.com

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"AXA MBASK" SIĞORTA ŞİRKƏTİ AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN rəhbərliyinə**

Biz, "AXA MBASK" Sığorta Şirkəti ASC-nin 31 dekabr 2015-ci il tarixinə olan dövr üzrə balans, maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat və balansa əlavədən ibarət olan maliyyə hesabatlarının və vergi bəyannamələrinin düzgünlüyünün auditini aparmışıq.

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının və vergi bəyannamələrinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq tələblərinə, Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının və vergi bəyannamələrinin hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları və vergi bəyannamələri üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında və vergi bəyannamələrində əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında və vergi bəyannamələrində göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının və vergi bəyannamələrinin əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və Cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının və vergi bəyannamələrinin təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Rəy***

Bizim fikrimizcə, 31 dekabr 2015-ci il tarixinə Cəmiyyətin maliyyə hesabatları və vergi bəyannamələri Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq tələblərinə, Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Müstəqil auditorun hesabatı 29.03.2016-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə Kaspian Konsaltinq Auditor Şirkətində saxlanılır.

**Kaspian Konsaltinq Auditor Şirkətinin Direktoru** — **E.A. Abasov**

**Auditor** — **E.T. Abdinova**

CASPIAN CONSULTING AUDIT COMPANY • KASPIAN KONSALTİNQ AUDİTOR ŞİRKƏTİ • BAKU, AZERBAIJAN REPUBLIC

# Fondun 22 iyul - Milli Mətbuat Günü münasibətilə keçirdiyi müsabiqənin qalibləri mükafatlandırılıblar



**İyulun 22-də "Altun Saray" istirahət mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan Milli Mətbuatının 141 illiyi ilə əlaqədar elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülmüş media nümayəndələrinin mükafatlandırılmasına həsr olunmuş tədbir keçirilib.**

Tədbirdə dövlət və hökumət təmsilçiləri, Milli Məclisin deputatları, diplomatik korpusların nümayəndələri, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri və müsabiqədə qalib olmuş jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli qonaqları və media təmsilçilərini salamlayaraq əsası "Əkinçi" qəzeti ilə qoyulmuş Azərbaycan Milli Mətbuatının çətin və şərəfli yol keçərək hazırkı inkişaf mərhələsinə çatdığını deyib. Azərbaycan mətbuatının ölkə rəhbərliyinin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayan icraçı direktor Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası"nın təsdiq edildiyini və konsepsiyadan irəli gələn vəzifələrin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradıldığını xüsusi qeyd edib. Vüqar Səfərli Fondun fəaliyyət göstərdiyi 7 ildə mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi və jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırdığı layihələr barədə məlumat verib.

Vüqar Səfərli Fondun 22 iyul - Milli Mətbuat Günü günü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri barədə də məlumat verərək bildirib ki, 19 istiqaməti əhatə edən müsabiqəyə 70 kütləvi informasiya vasitəsindən 167 yazı daxil olub. Yazılar 12 ekspert tərəfindən qiymətləndirilib, Müşahidə Şurasının qərarı əsasında daha yüksək bal toplamış 114 nəfər jurnalist qalib elan edilib.

Daha sonra söz Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Administrasiyanın ictimai-siyasi məsələlər şöbəsinin müdiri, professor Əli Həsənova verilib. Tədbir iştirakçılarını salamlayan Əli Həsənov milli mətbuatın 141 illiyi ilə əlaqədar media nümayəndələrini təbrik edərək bildirib ki, mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımızın xalqımızın maariflənməsində, milli dəyərlərin təbliğində oynadığı mühüm rol, cəmiyyətimizin, milli dövlətçiliyimizin inkişafına verdiyi əvəzsiz töhfələr bu gün onun şanlı tarixi haqqında fəxrlə danışmağa tam əsas yaradır.



Prezidentin köməkçisi deyib ki, bu gün qlobal informasiya məkanında Azərbaycan mediasının uğuru həm də Azərbaycan xalqının uğurudur. Bu gün Azərbaycanı dünyaya bütün möhtəşəmliyi, müasirliyi, tolerant mühiti ilə təqdim edən jurnalistin imzası həm də Azərbaycan xalqının imzasıdır. Hər bir jurnalist sözü vicdanla, öz xalqını, dövlətini düşünərək deməlidir, milli maraqlarımızı müdafiə etməyi bacarmalıdır, əsrlər boyu uğrunda mübarizə apardığımız və hazırda fəxrlə yaşadığımız Azərbaycan dövlətini təbliğ etməli və qorumalıdır.

Sonra Fondun 22 iyul - Milli Mətbuat Günü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinə diplomlar təqdim edilib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov mərasimdə çıxış edərək milli mətbuatımızın keçdiyi çətin və şərəfli tarixi yola nəzər salıb, xalqımızın həyatında "Əkinçi" qəzetinin oynadığı rolu xüsusi vurğulayıb. Qeyd edib ki, "Əkinçi" qəzeti Azərbaycanda uzun illərdən bəri yaranmış problemlərdən çıxış yollarını açıq-aydın göstərərək ölkəmizdə maarifçiliyin, milli oyanış hərəkatının inkişafında mühüm rol oynayıb.

Əflatun Amaşov Azərbaycan dövlətinin mətbuatın inkişafına daim xüsusi diqqət və qayğı göstərdiyini vurğulayaraq, Prezident İlham Əliyevin ötən gün imzaladığı sərəncamları bu diqqət və qayğının göstəricisi kimi dəyərləndirib.

Daha sonra Azərbaycan Mətbuat Şurasının təsis etdiyi Ali Media Mükafatı laureatlara təqdim olunub. Qeyd edilib ki, hər il Milli Mətbuat Günündə - iyulun 22-də təqdim olunan mükafatın üç dərəcəsi var. Birinci dərəcə üzrə bir, ikinci dərəcə üzrə iki, üçüncü dərəcə üzrə beş laureat müəyyənləşdirilib. Ali Media Mükafatının birinci dərəcəsi üzrə laureat yazıçı-publisist, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyevadır. O, Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin yaradıcılığından bəhs edən "İşığa gedən yol" romanına görə təltif edilib.

Ali Media Mükafatının ikinci və üçüncü dərəcələr üzrə laueratları da media sahəsindəki uzunmüddətli səmərəli fəaliyyətlərinə görə mükafatlandırılıblar.

Sonra müxtəlif dövlət qurumlarının 2016-cı il ərzində fəallığına görə fərqlənən mətbuat xidmətlərinin rəhbərlərinə və KİV-in baş redaktorlarına "Bakcell" şirkətinin mükafatları təqdim edilib.

Tədbirə yekun vuran Fondun icraçı direktoru Vüqar Səfərli rəsmi hissənin yekunlaşdığını bildirərək ölkə jurnalistlərini bir daha peşə bayramı münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbir bədii hissə ilə davam etdirilib.

# Smart Start proqramına seçilən gənclər Bakcell şirkətində təcrübəyə başlayıblar

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin təşkil etdiyi "Smart Start" təcrübə proqramının seçim turlarından uğurla keçən gənclər şirkətdə təcrübə keçməyə başlayıblar.

Tələbə və məzunlar üçün nəzərdə tutulmuş 2 aylıq proqramın məqsədi karyerasında ilk addımlarını atmağa başlayan 18-25 yaş arası gəncləri Azərbaycanın ən böyük şirkətlərindən birində iş mühiti ilə tanış etmək, onların praktiki biliklərini artırmaq və işə hazırlıq bacarıqlarını inkişaf etdirməkdir.

Gənclər arasında "Smart Start" proqramına maraq bu il də böyük olub. "Bakcell"də təcrübə keçmək üçün 2000-ə yaxın gənc müraciət forması təqdim edib. Bütün seçim mərhələlərini müvəffəqiyyətlə keçən 33 nəfər isə təcrübə proqramında iştirak hüququ qazanıb.

İştirakçılar 2 ay müddətində insan resursları, marketinq, mühasibatlıq, pərakəndə satış və distribusiya, korporativ satış, informasiya texnologiyaları əməliyyatları, müştəri və müəssisə idarəetmə platformaları, xidmət əməliyyatları mərkəzi, proqram idarəetmə, müştəri xidmətləri strategiyası və onlayn xidmətlərin idarə edilməsi, müştəri xidmətləri şöbələrində çalışacaqlar.

Təcrübə müddətində gənclər şirkətin mütəxəssisləri arasından seçilən təcrübə rəhbərləri vasitəsilə müvafiq bilik və bacarıqlara yiyələnərək şirkətin ümumi strukturunu və iş prinsiplərini öyrənir, eyni zamanda, karyera planlaşdırılması, biznes etikası, vaxtın səmərəli bölgüsü, effektiv kommunikasiya, özünü kəşfetmə, əməyin təhlükəsizliyi və ətraf mühit, sağlamlıq və digər mövzularda təşkil olunan təlimlərdə iştirak edirlər.

Qeyd edək ki, 2014 və 2015-ci illərdə "Smart Start" təcrübə proqramından 54 nəfər məzun olub, onların 12 nəfəri artıq Bakcell şirkətinin müxtəlif sahələrində işlə təmin olunub. Digər məzunlar isə yeni yaranan vakansiyalara potensial namizəddirlər.

Proqram iştirakçıları nəqliyyat və qida xərclərini qarşılamaq məqsədilə 2 ay müddətində "Bakcell"dən təqaüd alırlar. Proqramın sonunda gənclər proqramda iştirak haqqında sənədlə təmin olunurlar.

Bu il gənclərin proqram haqqında ətraflı məlumat alması və müraciət prosesini daha dinamik və asan etmək məqsədi ilə yeni sayt istifadəyə verilib. Sayt vasitəsi ilə təcrübə proqramına müraciət etmək, proqram haqqında daha geniş məlumatları, xəbərləri və məzunların təcrübə hekayələrini oxumaq, "Bakcell"in universitetlərdə keçirdiyi tədbirlərə qoşulmaq üçün qeydiyyatdan keçmək, əməkdaşlarımızın gənclərə verdiyi tövsiyələri ilə tanış olmaq mümkündür.

Kreativ gənclərin öz təkliflərini və layihə ideyalarını göndərə bilməsi üçün saytda xüsusi bölmə yaradılıb. Son statistakaya əsasən, gənclər artıq bu saytdan aktiv şəkildə faydalanır və şirkətlə daha sıx əlaqəyə girirlər. Saytla aşağıda qeyd olunan keçiddən istifadə edərək tanış ola bilərsiniz: http://developtalent.bakcell.com/az

# "Nar-CityNet" abunəçilərə eyni qiymətə iki dəfəyə qədər artıq sürət təklif edir

1 avqust 2016-cı il tarixindən etibarən, "Nar-CityNet" bütün limitsiz tariflərində internet sürətini 2 dəfəyə qədər artırdı. Artıq abunəçilər eyni qiymətə daha sürətli internet xidmətindən yararlana biləcəklər. Əlavə olaraq, "Extreme-1" və "Maxima" trafikli tariflərdə internetin trafikinin həcmi 3 dəfədən çox artırıldı.

"Nar-CityNet" xidmətlərinə qoşulmuş bütün yeni abunəçilərə daha yüksək sürətlə yanaşı, bir ay pulsuz internet də təqdim olunur. Bundan başqa, "Nar-CityNet"-in ADSL xidmətindən istifadə edən cari abunəçilər fiber-optik internet xidmətinə keçdikdə, hədiyyə olaraq ruter əldə edirlər. Pulsuz ruteri əldə etmək üçün abunəçilər sadəcə ilk iki ayın abunə haqqını öncədən ödəməlidirlər.

Hazırda "Nar-CityNet" Bakı və Abşeron yarımadası ərazisində FTTB (Fiber to the Building – Bina üçün fiber-optik) və ADSL (Asymmetric Digital Subscriber Line – Asimmetrik rəqəmsal abunəçi xətti) texnologiyaları əsasında yüksəksürətli sabit internet, eləcə də rəqəmsal TV (50 HD kanal daxil olmaqla) xidmətlərini təklif edir.

# Tələbələr "Excelsior Hotel Baku" otelində peşəkar tədris proqramında iştirak edirlər



"Excelsior Hotel Baku" otelində tələbələr üçün peşəkar tədris proqramı davam edir.

Otelin İnsan resursları departamenti tərəfindən tələbələrin təcrübə toplaması üçün hazırlanmış proqramda Azərbaycan Turizm və Menecment Universitetinin tələbələri və kulinar və aşpaz hazırlayan texniki-peşə məktəbləri şagirdləri iştirak edirlər. Pulsuz öyrədici proqram 6 ay üçün nəzərdə tutulmuş və proqram başa çatdıqdan sonra müvafiq sertifikat verilir.

"Excelsior Hotel Baku" otelinin İnsan Resursları departamentinin meneceri Kamran Rzayev təcrübə proqramı ilə bağlı qeyd etdi ki, bu gün "Excelsior Hotel Baku" oteli tələbələr üçün peşəkar inkişaf, karyerada yüksəliş və özünü reallaşdırma üçün imkanlar deməkdir. 2016-cı ildə 25 nəfər tələbə 15 aprel 2016-cı il tarixindən 15 sentyabr 2016-cı il tarixinə qədər oteldə İnsan Resursları, Müştəri Xidməti, Marketinq və Satış və s. departamentlərdə təcrübə keçəcəklər.

# AGBank əmanət faizlərini əvvəlcədən ödəyir

*AGBank-dan "İLİN 5-ci fəsli" əmanəti ilə faizləri 3 ay əvvəl götürmək imkanı*

AGBANK
Zəngin olmaq haqqınızdır

AGBank yay aylarında yeni xidmət və məhsullarını təqdim etməyə davam edir. Bank bu dəfə yeni "İlin 5-ci fəsli" əmanət növü ilə hər kəsi sevindirir. İndi "İlin 5-ci fəsli" əmanət növündən yararlanmaqla siz, 3 ayın faizlərini əvvəlcədən əldə edə bilərsiniz. Əmanətləri bir il müddətinə AZN, ABŞ dolları və avro valyutasında yerləşdirmək mümkündür.

Müştərinin istəyi ilə əmanət üzrə faizlərin ödənilməsi üçün pulsuz Maestro (Deposit) kartı və ya əmanətin məbləğindən asılı olaraq pulsuz plastik kart və SMS Bankinq xidmətinə qoşulma rəsmiləşdirilir. Eyni zamanda, AGBank-da yerləşdirilən əmanətlər, Əmanətlərin Sığortalanması Fondunun şərtlərinə uyğun olaraq sığortalanır.

Qeyd edək ki, 2016-cı il fevralın 1-dən etibarən 3 il müddətində yerli bank və xarici bankın Azərbaycanda fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad edilir.

iDEAL DiZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr



- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

**Etibarsızdır**

"Azərbaycan Sənaye Lizinq" MMC-yə məxsus 9900073401 nömrəli VÖEN-nin şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Şahrza Əliyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Rauf Əliyev, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Zaman-Azər" MMC firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3400